# APELLYASİYA ŞURASINA

## ONLAYN MÜRACİƏT

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Hörmətli istifadəçilər!
"Elektron hökumət portalı üzərindən Apellyasiya Şuralarına şikayət qəbulu" xidməti sahibkarların yerli icra hakimiyyəti və mərkəzi icra hakimiyyəti orqanlarının qərarlarından şikayətlərin verilməsi məqsədi ilə yaradılıb. Xidmətdən yalnız sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər istifadə edə bilər.

Şikayət yazılı formada tərtib edilir. Şikayətdə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulan məlumatlarla yanaşı, aşağıdakı məlumatlar da göstərilir:

- Şikayət edən şəxsin VÖEN-ü;
- Şikayətin predmeti üzrə bundan əvvəl aidiyyəti mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarına edilmiş şikayət (şikayətlərin) və alınmış cavab (cavablar) barədə məlumatlar;
- Şikayətin predmeti üzrə bundan əvvəl mərkəzi və ya yerli icra hakimiyyəti orqanına şikayətin (şikayətlərin) edilməsinə səbəb olan hal barədə məlumatlar (o cümlədən, aidiyyəti mərkəzi və ya yerli icra hakimiyyəti orqanının və həmin orqanın Apellyasiya Şurasının qəbul etdiyi inzibati aktın adı, tarixi, nömrəsi, qısa məzmunu);
- Şikayətə əlavə edilmiş sənədlərin siyahısı.
- Şikayətlər şikayət edən fiziki şəxsin özü və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndələri tərəfindən (səlahiyyəti təsdiq edən sənədin surəti şikayətə əlavə edilməklə) imzalanır.
- Hüquqi şəxs tərəfindən təqdim olunan şikayətlərə həmin hüquqi şəxsin möhürü vurulmalıdır. Bu tələb rezident və qeyri-rezident hüquqi şəxslərin nümayəndəlik, filial və idarələrinə də şamil edilir. Bu zaman şikayətlərə müvafiq olaraq nümayəndəlik, filial və idarələrin möhürü vurulur.
- Şikayətlərin əsaslı olmasını təsdiq edən sənədlərin (dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarından alınmış qərar, akt, rəy, məktub, arayış, qəbz və digər sənədlərin) müvafiq qaydada təsdiq olunmuş surətləri şikayətlərə əlavə edilir.
- Aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarında baxılmadan birbaşa Şuraya daxil olmuş şikayətlər, habelə korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə şikayətlər baxılması üçün aidiyyəti üzrə göndərilir.
- Şurada baxılmış (və ya mahiyyəti üzrə baxılmamış) hər bir şikayət üzrə şikayəti etmiş şəxsə (şəxslərə) araşdırmanın nəticəsinə dair əsaslandırılmış qərar (və ya yazılı cavab) göndərilir.

QEYD: E-şikayət etməzdən əvvəl "İstifadəçi üçün təlimat və istifadə qaydaları" ilə tanış olmağınız vacibdir. Nəzərinizə çatdırırıq ki, elektron müraciətdə göstərdiyiniz məlumatların düzgünlüyünə görə Azərbaycan Respublikasının müvafiq qanunlarına əsasən məsuliyyət daşıyırsınız.

ONLAYN MÜRACİƏTƏ KEÇİD

NAZİRLİYİN DİGƏR E-XİDMƏTLƏRİ